**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**

**Mingəçevir Turizm Kolleci**

**Publik Hüquqi Şəxsi**

# TƏLƏBƏ ÜÇÜN YADDAŞ

**Mingəçevir - 2023**

# Tələbələr üçün yaddaş

**Sual:** Təhsil Tələbə Krediti nədir?
**Cavab:** Fənnin məzmununa və həcminə uyğun olaraq, onun mənimsənməsinə ayrılan ölçü vahididir.

**Sual:** Bir kredit neçə saata bərabərdir?
**Cavab:** Bir kredit 30 saata bərabərdir (15 saat auditoriya, 15 saat auditoriyadan kənar).

**Sual:** Tələbənin fərdi tədris planı nədir?
**Cavab:** Tələbənin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, həmin fənləri tədris edən müəllimlərin siyahısını əks etdirən sənəddir.

**Sual:** Tələbə öz fərdi tədris planını nə vaxta qədər hazırlayıb fakültəyə təhvil verməlidir?
**Cavab:** II tədris ilindən başlayaraq tələbə öz fərdi tədris planını iyul ayının 5-dən 15-dək hazırlayıb fakültəyə təhvil verməlidir. Fərdi tədris planında tələbə sentyabrın 10-dək dəyişiklik edə bilər.

**Sual:** Növbəti il üçün fərdi tədris planını hazırlayan zaman tələbə ilk olaraq nəyə diqqət yetirməlidir?
**Cavab:** Tələbə növbəti il üçün fərdi tədris planını hazırlayarkən fənlərin prerekvizitliyini gözləməklə buraya ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlərin daxil edilməsinə diqqət yetirməlidir.

**Sual:** Prerekvizit fənn nədir?
**Cavab:** Tədrisi öncə zəruri olan fənn prerekvizit fəndir.

**Sual:** Fərdi tədris planını hazırlayarkən tələbə kimin köməyindən istifadə edə bilər?
**Cavab:** Tələbə öz fərdi tədris planını hazırlayarkən tyutorun (akademik məsləhətçinin) köməyindən istifadə edə bilər

**Sual:** Hansı halda tələbənin sonradan tədris planında dəyişiklik etməsinə icazə verilə bilər?
**Cavab:** Yalnız payız semestrindən akademik borcu qalan tələbə qış tətilinin ilk həftəsində (2-8 fevral) fərdi tədris planında müəyyən olunmuş qaydada düzəliş edə bilər.

**Sual:** Tələbənin sərbəst işi nədir?
**Cavab:** Tələbənin fərdi şəkildə nəzərdə tutulmuş tapşırıqları sərbəst və müəllimin rəhbərliyi ilə auditoriyadankənar həyata keçirdiyi müstəqil işidir.

**Sual:** Akademik transkript nədir?
**Cavab:** Tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri və qiymətləri (rəqəm və hərflərlə) özündə əks etdirən sənəddir.

**Sual:** Tələbə akademik transkripti təhsil müəssisəsindən nə vaxt ala bilər?

**Cavab:** Tələbə akademik transkriptini təhsil aldığı müddətdə istənilən vaxt əldə edə bilər.

**Sual:** Müvəffəqiyyətlə təhsil alan tələbə kimdir?

**Cavab:** Fərdi tədris planında qeyd olunan bütün fənlərdən müəyyən olunmuş kreditləri qazanan tələbədir.

**Sual:** Akademik borcu olan tələbə kimdir?

**Cavab:** Fərdi tədris planında qeyd olunan fənlərin ən azı birindən müəyyən olunmuş krediti qazana bilməyən tələbədir.

**Sual:** Tədris ili neçə semestrdən ibarətdir?

**Cavab:** İki semestrdən: payız və yaz semestri. Bundan əlavə 6 həftə müddətində yay semestri də təşkil oluna bilər.

**Sual:** Hər semestr neçə həftədən ibarətdir?

**Cavab:** Hər semestr 20 həftədən (15 həftə dərs, 5 həftə imtahan) ibarətdir.

**Sual:** Bir semestrə neçə kredit müəyyənləşdirilir?

**Cavab:** Tədrisə tam cəlb olunan tələbəyə bir semestrə 30 kredit müəyyənləşdirilir.

**Sual:** Məzun olan tələbənin neçə kredit toplaması şərtdir?

**Cavab:** İxtisasın təhsil müddətindən asılı olaraq subbakalavriatda tələbənin 120 kredit toplaması şərtdir.

**Sual:** Tələbə nə zaman120 kredit toplamalıdır?

**Cavab:** İxtisasın təhsil müddəti 2 il, yəni 4 semestr olduqda.

4 semestr x 30 kredit = 120 kredit.

**Sual:** Orta təhsil müəssisəsində hansı qiymətləndirmədən istifadə olunur?

**Cavab:** Orta təhsil müəssisəsində cari və aralıq qiymətləndirmədən istifadə olunur.

**Sual:** Cari və aralıq qiymətləndirmə nədir?

**Cavab:** Cari qiymətləndirmə tələbənin fənn üzrə 15 həftəlik semestr müddətində fəaliyyətinin qiymətləndirilməsidir. Aralıq qiymətləndirmə tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsidir.

**Sual:** Hansı halda tələbə hər hansı fəndən imtahana buraxılmaya bilər?

**Cavab:** Fənn üzrə ayrılmış auditoriya saatlarının 25%-dən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır.

**Sual:** Yay semestrində tələbəyə neçə kreditədək fənn götürməyə icazə verilir?

**Cavab:** Yay semestrində tələbəyə 10 kreditədək fənn götürməyə icazə verilir.

**Sual:** Tələbə müvəffəqiyyət qazandığı fəndən hansı halda qiymətini yüksəldə bilər?

**Cavab:** Tələbə müvəffəqiyyət qazandığı fəndən yay semestrində qiymətini yüksəldə bilər.

**Sual:** Tələbə müvəffəqiyyət qazandığı fəndən hansı halda qiymətini yüksəldə bilər?

**Cavab:** Tələbə müvəffəqiyyət qazandığı fəndən yay semestrində qiymətini yüksəldə bilər.

**Sual:** Ali təhsil müəssisəsində tələbənin biliyi hansı sistem üzrə qiymətləndirilir?

**Cavab:** Biliyin qiymətləndirilməsinin çoxballı sistemi üzrə qiymətləndirilir.

**Sual:** Tələbənin toplaya biləcəyi maksimum balın həddi neçəyə bərabərdir?

**Cavab:** Tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum həddi 100-ə bərabərdir. Bu balların yarısı semestr ərzində tələbənin fəaliyyətinə görə, digər yarısı imtahan nəticəsinə görə müəyyənləşir.

**Sual:** Semestr ərzində tələbənin toplaya biləcəyi 50 bal necə müəyyənləşir?

**Cavab:** 10 bal dərslərə davamiyyətə görə;
10 bal tələbənin sərbəst işinə görə;
30 bal seminar və ya laboratoriya nəticələrinə görə.

**Sual:** Dərslərə davamiyyətə görə ballar necə hesablanır?

**Cavab:** Semestr ərzində fənnin tədrisinə ayrılan auditoriya saatlarının hər buraxılan 10%-nə 1 bal çıxılır.

**Sual:** Sərbəst işlərə görə ballar necə hesablanır?

**Cavab:** Semestr ərzində hər fənn üzrə 10 sərbəst iş tapşırığı müəyyənləşir və hər yerinə yetirilən sərbəst iş 1 balla qiymətləndirilir.

**Sual:** Seminar məşğələsində fəaliyyətə görə ballar necə hesablanır?

**Cavab:** Tələbənin seminarda topladığı balların orta qiyməti hesablanır, tədrisin bu növü üçün maksimum həddə vurularaq 10-a bölünür.

**Sual:** Laboratoriya işlərinə görə ballar necə hesablanır?

**Cavab:** Semestr ərzində tələbənin təhvil verdiyi laboratoriya işlərinin sayının cəmi nəzərədə tutulan laboratoriya işlərinin sayına nisbətini fənnin tədrisinin bu növünə ayrılmış maksimum bala vurmaqla hesablanır.

**Sual:** ÜOMG nədir və hansı məqsədlərlə tətbiq edilir?

**Cavab:** Tələbənin Ümumi orta müvəffəqiyyət göstəricisidir. Tələbənin tədris fəaliyyətini fəallaşdırmaq, onun özünənəzarət mexanizminin yaratmaq və tədrisdə əldə etdiyi nailiyyətləri qiymətləndirmək məqsədilə tətbiq edilir.

**Sual:** ÜOMG necə hesablanır?

**Cavab:** Fənlər üzrə toplanan balların həmin fənlər üzrə qazanılan kreditlər hasilləri cəminin fərdi tədris planında nəzərədə tutulan müvafiq kreditlərin cəminə olan nisbəti kimi hesablanır.

**Sual:** Apellyasiya Komissiyası hansı məqsədlə yaradılır?

**Cavab:** İmtahanlar zamanı baş verəcək münaqişələri aradan qaldırmaq məqsədilə.

**Sual:** Tədris planında fənlər vacibliyinə və ardıcıllığına görə neçə qrupa bölünür?

**Cavab:** 3 qrupa: 1) məcburi və ardıcıl öyrənilən fənlər; 2) məcburi, lakin ardıcıllığı vacib olmayan fənlər; 3) tələbələrin öz seçimi əsasında öyrənilən fənlər.

**Sual:** Məcburi və ardıcıl öyrənilən fənlər hansılardır?

**Cavab:** Təhsil proqramında ixtisasın peşə hazırılığı fənləri məcburi və ardıcıl öyrənilən fənlərdir.

**Sual:** Məcburi, lakin ardıcıllığı vacib olmayan fənlər hansılardır?
**Cavab:** Təhsil proqramında ümumi fənlər bölümündə əks olunan fənlər məcburi, lakin ardıcıllığı vacib olmayan fənlərdir. Məsələn: Azərbaycan tarixi, Azərbaycan dilində işgüzar və akademik kommunikasiya, Xarici dildə işgüzar və akademik kommunikasiya

**Sual:** Tələbələrin öz seçimi əsasında öyrənilən fənlər hansılardır?
**Cavab:** Tədris planında ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən alternativ əsaslı blok fənləridir.

**Sual:** Orta təhsil müəssisəsində hansı tələbə təşkilatları olur?
**Cavab:** Tələbə Gənclər Təşkilatı

**Sual:** Turizm Kollecinin rəsmi internet saytı hansıdır?
**Cavab:** mtk.az

**Sual:** Turizm Kollecinin rəsmi mail ünvanı hansıdır?
**Cavab:** mtktourismcollege@gmail.com

Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi, Pedaqoji Şurasının "14" sentyabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 01).